Yaddaşlarda yaşayanlar

# Xəlil Rza Ulutürk

**Bu rubrikaya növbəti yazını başqa bir söz-sənət fədaimiz barədə hazırlamaq istəyirdim. Ancaq onu təxirə saldım. Səbəb də "Xalq qəzeti"nin 2 fevral tarixli nömrəsinin "Cənubi Azərbaycan" səhifəsində Tehranda yaşayan soydaşımız Alma Muğanlının "Dünya fırlanır"adlı şeiri oldu.**

Həmin şeiri oxuyanda Xəlil Rzanın "Azadlıq" şeirinin son bəndi yadıma düşdü:

*Çəkil, çəkil, ey qəsbkar.*
*Mən bu yurdun gur səsiyəm.*
*Gərək deyil sısqa bulaq,*
*Mən ümmanlar təşnəsiyəm.*

Məhz bu misralardan ruhlanaraq, "Yaddaşlarda yaşayanlar"a Azərbaycanın azadlıq mücahidi Xəlil Rza Ulutürklə bağlı bir xatirəmi təqdim edirəm.



## Çantanı çalmışlar, yigit...

Müstəqilliyin ilk illəri idi. Əvvəllər ali təhsil aldığım Azərbaycan Dövlət İncəsənət İnstitutuna Əli bəy Hüseynzadənin adının verilməsi mərasimi keçirilirdi. O zaman mən Dövlət radiosunda çalışırdım. Tədbirdən reportaj hazırlamaq üçün instituta getdim. Səsinin urvatlı olacağı adam axtarırdım ki, Xəlil Rzanı gördüm. Məqsədimi deyəndə səs -küydən uzaq, sakit bir otağa keçməyi məsləhət bildi.

Mən səsyazanı apardığım ( o zaman Macarıstan istehsalı olan R-7 səsyazanlarla işləyirdik və onun çəkisi çantasız yeddi kiloqram idi) çantanı dəhlizdəki pəncərənin yanında qoyub Xəlil bəylə sinif otağına keçəndə şair məndən soruşdu:

– Yigit, çantanı çalmazlar?

Dedim, oğurlamazlar, Xəlil bəy.

Lent yazısını, təxminən, on beş dəqiqəyə hazırladım və dəhlizə çıxıb çantamı axtaranda Xəlil Rza dərindən köks ötürdü:

– Çantanı çalmışlar, yigit...

Sonra sanki şairin üzündə köhnə nifrətin külələri əsdi. Hamının eşidəcəyi uca səslə dedi: – Yigit, sənin çantanı çalan imperialistlərin, Kreml siyasətçilərinin tərbiyə etdikləri cavanlardır. Müstəqilliyin 20 illiyindən sonra Azərbaycan ali məktəblərində kimsə kiminsə əmlakını çalmayacaq. Bunu mütləq görəcəksiniz!

... Mən səsyazanı redaksiyaya "köynəksiz saz kimi" apardığıma dözdüm. Amma şairin öz xalqının ağır dərdlərindən olan oğurlamaq həvəsinə necə təəssüflənib köks ötürməyinə dözmürdüm.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***